Siyasi elmlər

UOT 070.49
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.201

# COP29 İQLİM DİPLOMATİYASINDA DÖNÜŞ NÖQTƏSİDİR

**AYTƏKİN ZEYNALOVA**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: phd.aytekinzeynalova@gmail.com*
*https://orcid.org/0000-0002-9737-1072*

**Giriş**

Ölkəmizdə keçirilmiş COP29 sayəsində iqlim böhranına qarşı dünya ölkələrinin mübarizə imkanları yenidən, özü də daha güclü bir şəkildə səfərbər edildi. Burada ən mühüm məqamlardan biri də odur ki, iqlim dəyişmələrinin təsirinə məruz qalan, lakin buna qarşı mübarizə aparmaq üçün lazımi imkanlara malik olmayan yoxsul, inkişaf etməkdə olan ölkələrin üzləşdiyi problemlərin aradan qaldırılmasına daha çox maliyyə və resurs sərf ediləcək. Bu, COP29-un ədalət prinsipinin gözlənilməsi baxımından da tarixi nailiyyətinin təzahürü oldu. Qeyd edilməlidir ki, zəngin ölkələr COP29-un yekununda qəbul edilən Bakı Maliyyə Məqsədi adlı qərara müvafiq olaraq, iqlim dəyişikliyinə hazırlaşmaq və qarşısını almaq üçün inkişaf etməkdə olan ölkələrə hər il rekord məbləğdə vəsait – 300 milyard ABŞ dolları verəcəklərini öhdəlik kimi öz üzərlərinə götürdülər. Bu qərar 2035-ci ilə qədər qüvvədədir. COP29-a qədər bu məbləğ 100 milyard ABŞ dolları təşkil edirdi və heç də əlverişli şərtlərlə verilmirdi. COP29-da tamam yeni nəticələr əldə olundu, ayrılan məbləğ indiyədək baş tutan COP tarixində əldə olunmuş rekord məbləğdir. Ayrılan vəsait artıq qlobal miqyasda yaşıl enerjiyə keçid prosesini sürətləndirəcək, ətraf mühitin çirkləndirilməsi prosesinin templərini aşağı salacaq. Təsadüfi deyil ki, iqlim məsələləri üzrə Avropa Komissarı Vopke Hukstra Bakıda qəbul edilən qərardan sonra iqlim maliyyəsində yeni eranın başladığını bildirib. O qeyd edib ki, yeni məqsədlər iddialı, lakin eyni zamanda, realdır (1).

## 1. Azərbaycan COP29 konfransına mühüm töhfələr verdi

COP29 başa çatdı. Qlobal tədbir iki həftə ərzində mühüm qərarları, qızğın müzakirələri, ən əsası ekskluziv çağırışları ilə tarixə keçdi. Gündəliyə çıxarılan aktual mövzular, verilən praktik təkliflər və qlobal iqlim dəyişiklikləri ilə mübarizə məqsədilə qəbul edilən qərarlar onu deməyə əsas verir ki, COP29 əvvəlki konfranslardan daha effektiv, daha məhsuldar oldu və qarşıya qoyduğu missiyanı da uğurla yerinə yetirdi. Və ən əsası bunu yalnız biz deyil, tədbirdə iştirak edən 80 minə yaxın qonaq, dövlət və hökumət başçısı, qeyri-hökumət təşkilatı təmsilçisi, media nümayəndəsi, çoxsaylı ekspert ordusu deyir. COP29 nəinki yüksək səviyyədə təşkil olunduğu, həm də bəşəriyyətin sabahı üçün strateji önəm daşıyan qərarların qəbulu, xalqların, xüsusən də azsaylı xalqların səsinin eşidilməsi, qlobal problemlərin açıq müzakirəsi və strateji qərarların verilməsi baxımından iki həftə ərzində olduqca ciddi platforma rolunu oynadı. Bir sözlə, Azərbaycan COP29-da qlobal iqlim məsələlərində faktiki yeni mərhələnin başlanğıcını qoydu. Bu isə sıradan bir uğur, sıradan bir hadisə deyil. Qlobal uğur, qlobal hadisə, qlobal nəticədir. COP-u heç də təsadüfən dünya siyasətinin olimpiadası adlandırmırlar. Çünki heç bir tədbirdə bu sayda dövlət və hökumət başçısı, tanınmış simalar, media və QHT nümayəndəsi, beynəlxalq və regional təşkilatların təmsilçiləri iştirak etmir. Elə bu baxımdan Azərbaycan COP29-a ev sahibliyi ilə dünyaya bir daha sübut etdi ki, o, bəşəriyyəti qayğılandıran məsələlərin müzakirəsi üçün əlverişli ünvandır. Azərbaycan sübut etdi ki, Bakı müxtəlif xarakterli forumları, konfransları, simpoziumları yüksək səviyyədə təşkil etmək bacarığına sahibdir və zəruri nəticələrin əldə olunmasına hər zaman dəyərli töhfələr verə bilər.

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarındakı paylaşımında qeyd olunduğu kimi: "Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək" (8).

Mübaliğəsiz demək olar ki, Bakıda yeni tarix yazıldı. Bu tarixi Azərbaycan xalqı, Azərbaycan dövləti, Azərbaycan Prezidenti yazdı. Qərbin hələ COP29 öncəsi və tədbirin gedişi zamanı11 gün ərzində həyata keçirdiyi genişmiqyaslı və planlaşdırılmış böhtan, qarayaxma, dezinformasiya kampaniyasına baxmayaraq, xaricdə, yaxud elə öz içimizdə daxildə oturub süni ajiotaj yaratmağa çalışan bəzi Qərb ölkələrinin liderlərinin tədbirə gəlməyəcəyindən sevinən satqınların canfəşanlığına baxmayaraq COP29 baş tutdu. Özü də uğurla baş tutdu (7).

**2.COP29: Effektiv mübarizə üçün atılması zəruri olan addımlar**

Effektiv mübarizə üçün atılması zəruri olan addımlar isə bunlardır:

1. Yeni milli iqlim planları, konkret emissiya azaldılması hədəfləri ehtiva etməli, bütün sektorları və istixana qazlarını əhatə etməlidir;
2. İqlim dezinformasiyası ilə mübarizə məqsədilə BMT, Braziliya və UNESCO-nun “İqlim dəyişikliyi üzrə məlumatın dəqiqliyi ilə bağlı qlobal təşəbbüs” adlı yeni layihəyə start verilməlidir;
3. Bərpa olunan enerji mənbələrinə keçid sürətləndirilməli, iqtisadiyyatın şaxələndirilməsinə və ədalətli keçidə nail olunmalıdır.

Prezident İlham Əliyev: “Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir” (3).

Yenidən müqayisəli bir fakta toxunaq, əsl həqiqətlər müqayisələr zamanı ortaya çıxır. Məsələn, Avropanın əsas iqtisadi gücü sayılan Almaniya təmiz enerjiyə keçid proqramına 30 ildir ki, davamlı və irihəcmli sərmayə qoyur. Ancaq indiyə qədər hədəflərin yarısına 50 faizinə nail olub. Azərbaycan isə qısa müddətdə və məhdud imkanlarla artıq 17 faizlik göstəricini keçib və 2030-cu ilədək bu rəqəmi 2 dəfə artırmaq və 35 faizə çatdırmaq məqsədindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasəti, milli məsələlərdə prinsipiallığı, kimliyindən asılı olmayaraq sözü birbaşa üzə demək bacarığı var.

Prezident İlham Əliyev: “1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır” . (4)

Avropanı da, elə Amerika Birləşmiş Ştatlarını da dəli edən həmin bu fikirlər, bu sözlərdir. Onlar bunu həzm edə bilmirlər. Niyə? Çünki tarix boyu özünü qlobal güc mərkəzi hesab edən bu ölkələrin liderlərinin üzünə heç kim reallığı deyə bilməyib. Nə istəyiblərsə onu da ediblər. Ən böyük haqsızlıq, ədalətsizlik, siyasi, iqtisadi, hərbi, ekoloji terrorun, kolonial, siyasətin, işğalın və zülmün beşiyi bu gün elə sülhdən, ədalətdən, təhlükəsizlikdən ağız dolusu danışan qlobal güc mərkəzləri konkret Amerika Birləşmiş Ştatları və Avropadır. Dünya bunu bilir, özü də gözəl bilir. Lakin bilsə də, qorxusundan susub, səsini belə çıxarmır. Lakin artıq belə deyil. Bu gün həmin o super güclərin üzünə layiq olduqları sözlər deyilir. Özü də sıradan bir beynəlxalq tədbirdə yox. Bir daha deyirik, dünyanın faktiki ən böyük tədbirlərindən və qlobal tribunalarından sayılan COP-da. Və bunu da Azərbaycan Prezidenti İlham

Əliyev deyir. Gəlin xatırlayaq. Prezident İlham Əliyev COP29-da çıxışı zamanı bir cümlə işlətdi: “Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik” adlandırır. İndi özümüz özümüzə sual verək. Bu, yalnız Borrellin yanaşmasıdır? (7)

Cozep Borrel bu sözlə Avropa və Amerikanın iç üzünü, əsrlərdir yürütdüyü siyasəti, qərb təfəkkürünü ifşa edir, ortaya qoyur. Çox uzaq keçmişdə deyil, XIX əsrin sonu XX əsrin əvvəllərində afrikalı qızcığazı qəfəsə salıb, Amerikadan, Avropadan olan turistlərə nümayiş etdirənlərin sözüdür, fikridir bu. Həmin qızda sanki insan deyil, heyvan balası görürlərmiş kimi davrananların fikridir bu. Doğrudan da, faciədir. İnsanlıq faciəsi, bəşəri faciə. Lakin reallıqlar dəyişibmi? Xeyr, dəyişməyib. Əsrlər keçib, amma təfəkkür, yanaşma, düşüncə dəyişməyib. Qoca Co və yaxud da Cozep Borrell Avropanı bağ, digər ölkələri cəngəllik adlandıranda bu reallığın ölmədiyini ortaya qoyur. Prezident İlham Əliyev də məhz bunu, bu reallığı dünyanın, daha dəqiq desək, həmin o bəlli dairələrin, hansı ki, COP29-u boykot edib Azərbaycana gəlməmişdi, üzlərinə vururdu. Prezident İlham Əliyev həmin o bədbəxtlərə o mesajı ötürürdü ki, sizin Bakıya, COP29-a gəlməməyiniz, boykot etməyinizin digər Avropa ölkələrinə zəng edib Azərbaycana getməmək tapşırığı verməyinizin səbəbi uydurduğunuz neft, qaz amili deyil, əsrlərdir həyata keçirdiyiniz bəşəri cinayətlər barədə reallıqları eşitməməyiniz üçündür (7).

Prezident İlham Əliyev: “Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək” (4).

Düşünün ki, bu fikirlər səslənəndə zalda konfrans iştirakçıları sırasında Fransa prezidenti Emmanuel Makron, yaxud Avropanın əsas diplomatı Cozep Borrell yer alsaydı nə olardı! BMT nin baş katibi Antonio Quterreşi ciddi şəkildə narahat edən bu sözlər Emmanuel Makronu, yaxud Cozep Borrelli nə hala salardı? Odur ki, gəlmədilər, qorxdular. Niyə? Çünki Prezident İlham Əliyevi yaxşı tanıyırlar və dövlət başçısının öz çıxışında regionla, konkret Azərbaycanla bağlı gedən oyunları tam şəkildə ifşa edəcəyini, detallı şəkildə ortaya qoyacağını gözəl bilirdilər.

Dünya internet dünyasıdır və tam əminik ki, Bakı tribunasından verilən mesajlar hədəfə dəydi. Amerika Birləşmiş Ştatlarının, sabiq Prezidenti Co Bayden, Fransa prezidenti Emmanuel Makron, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts da öz payını götürdü. Təşkilatlara gəlincə, bu cür qlobal tədbirlərdə durmadan danışan Avropa İttifaqının prezidenti Şarl Mişel COP29-da jurnalistimizin sualına minbir bəhanə ilə cavab gətirməkdən qorxdu, çəkindi, yayındı.

Görəsən niyə? Yəqin, cənab Mişel rəsmi görüşlərdə eşitdiyi sözlərin təsirindən özünü qeyri adekvat aparırdı. Həm Şarl Mişel, həm də COP29-a gəlməyən və saxta gülüşlərlə Bakıdan Avropaya qaz nəqlini artırmağı xahiş edən Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen. Bax həmin Ursula Fon der Lyayen birbaşa COP29-da maliyyə hədəfinin əldə olunmaması, ümumiyyətlə, tədbirin baş tutmaması üçün boykot yolunu seçənlər sırasına qatıldı. Onlar çalışdılar ki, Avropa ölkələri bu tədbirə qatılmasın. Onlar çalışdılar ki, Avropa İttifaqı iqlim dəyişikliyinə qarşı mübarizədə az vəsait ayırsın. İştirak edən qonaqların bir qismi isə COP29-un işini qarışdırsın (7).

Vurğulayaraq qeyd edirəm ki, həm qonaqların sayı, həm siyasi arenadakı çəkisi, həm də qəbul edilən qərarların önəmi ilə COP29 baş tutdu. Nəinki baş tutdu, hətta Yaşıl dünyanın gələcəyi naminə mühüm təşəbbüslər, praktik nəticələr ortaya qoyuldu. Beləliklə, COP29 dünyaya nə verdi? Məsələn, Paris razılaşmasının 6-cı bəndi üzrə 10 ildən artıqdır ki, danışıqlar aparılır, lakin nəticə əldə olunmurdu. Nəticə Bakıda alındı. Konfrans zamanı tərəflər yeni iqlim, maliyyə hədəflərinin müəyyənləşdirilməsi məsələsində irəliyə doğru çox ciddi addımlar atdılar. Beynəlxalq maliyyə və bank strukturlarının ortaya qoyduqları yanaşma isə praktik nəticələrin əldə ediləcəyinə olan ümidləri bir qədər də artırdı. Bundan əlavə, COP29 çərçivəsində tərəflər Paris sazişinin 6-cı maddəsinin 8-ci paraqrafında istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul etdilər. Sözügedən maddə ölkələrin iqlim hədəflərinə çatmaq üçün əməkdaşlıq zamanı etibarlı və şəffaf karbon bazarlarının təmin edilməsini nəzərdə tutur. 6-cı maddənin tam şəkildə tətbiqi isə ölkələrin milli səviyyədə müəyyən edilmiş

töhfələrin həyata keçirilməsi üçün sərf etdikləri vəsaiti ildə təxminən 250 milyard dollar azalda bilər. Üstəlik, COP29-un Azərbaycan üçün ən böyük uğuru, heç şübhəsiz ki, Bakıya gələn çoxsaylı qonaqların da vurğuladığı kimi, ölkəmizin qlobal, şimal və qlobal cənub, habelə Şərq və Qərb arasında körpü rolunu oynadığını sübut edə bilməsidir.

Prezident İlham Əliyev: "Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük. Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib" (5).

Prezident İlham Əliyevin Liderlər sammitində səsləndirdiyi bu fikirlər Azərbaycanın indiki qlobal münasibətlər sistemindəki yerini və rolunu tam səciyyələndirir. Rəsmi Bakı COP zirvəsində müzakirə edilən mövzuları fərdi maraqlar deyil, dünya birliyinin rifahı prizmasından qiymətləndirdiyini və iqlim problemlərinin aradan qaldırılması üçün istənilən məsələdə təşəbbüskar və yaxud avanqard rolunda çıxış etməyə hazır olduğunu bildirdi.

BMT nin baş katibi Antoniu Quterreşin Bakıdan sonra səfər etdiyi Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Böyük İyirmilərin zirvə görüşündən verdiyi mesaj da məhz Azərbaycanda qlobal iqlim dəyişiklikləri ilə mübarizə üzrə təqdim edilən rasional fəaliyyət proqramına söykənir.

Baş katib hesab edir ki, COP29-da uğurlu nəticə əlçatandır. Lakin bu, həm də G-20 ölkələrindən liderlik və kompromis tələb edəcək. Bakı danışıqlarında inkişaf etməkdə olan ölkələrə iqlim sərmayələri üçün 1 trilyon dollarlıq vəsaitin ayrılması üzrə razılaşmanın əldə edilməsini əhəmiyyətli sayan Quterreş onu da vurğulayır ki, G-20 ölkələri qlobal emissiyaların 80 faizinə malikdir və məhz onlar bu məsələdə örnək olmalıdırlar: Onun fikrincə: "Biz Bakıda uğur qazanmalı, inam yaratmalı və gələn il yüksək ambissiyalı milli iqlim planlarının hazırlanmasını təşviq etməliyik. Uğursuzluq seçim deyil, əks halda yeni milli iqlim fəaliyyət planlarının hazırlanmasında ambisiyalar azalar və geri dönüşü olmayan iqlim dəyişikliklərinə daha da yaxınlaşarıq. Qlobal iqlim böhranı kritik həddə çatıb. Əgər qlobal temperatur artımını 1,5 dərəcə selsi ilə məhdudlaşdırmasaq fəlakətli nəticələrlə üzləşəcəyik".

Üstəlik, məhz COP29 müzakirələri çərçivəsində aydın oldu ki, qlobal temperaturun 1,5 dərəcə Selsi səviyyəsində saxlanılması üçün 2030-cu ilə qədər hər il 1 trilyon dollar vəsait ayrılmalıdır. Kifayət qədər böyük rəqəmdir və hər bir ölkə onun üçün müəyyən edilmiş kvota çərçivəsində iqlim fonduna nəzərdə tutulan məbləği ödəsə, real nəticələr əldə etmək olar. Lakin böyük güclər iqlim fəsadlarına qarşı mübarizəyə, ələxsus da mövcudluqları sual altına düşən Kiçik ada dövlətləri üçün maliyyə ayırmağa maraq göstərmir. Bu üzdən inqilabi sıçrayışın baş verəcəyini gözləmək hələ ki, şübhə doğurur. Bütün bu müzakirələr isə öz növbəsində Azərbaycanın qlobal iqlim hədəflərinə doğru daha səmərəli və daha prinsipial şəkildə irəliləməsini, yaşıl iqtisadiyyata keçidin sürətləndirilməsini şərtləndirəcək.

**Nəticə**

COP29 Bakı konfransı həqiqətən də qlobal iqlim məsələləri üzrə 1992-ci ildən etibarən bu günə qədər keçirilən tədbirlər tarixində özünəməxsus yerini alacaq. 70 mindən çox nümayəndənin qatıldığı tədbirin iqlim dəyişikliklərinə qarşı mübarizədə müstəsna qərarların qəbulunda həlledici mərhələ olacağını düşünənlər yanılmadılar. Noyabrın 11-dən 22-nə qədər davam edən böyük diskussiyalar və çətin müzakirələr nəticəsində tərəflər planetin sabahı üçün xüsusi önəm daşıyan məsələlərdə razılığa gələ bildilər və bu razılıqların əldə olunmasında COP29-a sədrlik edən Azərbaycan əhəmiyyətli rol oynadı. Bu COP-un əsas məqsədi maliyyə mövzusunda irəliləyişə nail olmaq idi və bu belə də oldu. Məhz Bakıda inkişaf etməkdə olan ölkələrə hər il 1.3 trilyon dollarlıq iqlim maliyyəsini təmin etməkdən ötrü Bakı maliyyə məqsədi ilə razılaşması elan olundu. Sənəd inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Bu, əvvəlki mətn layihəsi ilə müqayisədə 50 milyard dollar artım deməkdir və COP29 sədrliyi, yəni Azərbaycan tərəfindən həyata keçirilən 48 saatlıq intensiv diplomatik fəaliyyətin məhsuludur. Burada az inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan Kiçik ada dövlətlərini dəstəkləməsinə də xüsusi diqqət

yetirilir. COP29 həmçinin İtki və zərər fondunu da işə saldı ki, fond 2025-ci ildə pul vəsaitlərini paylaşdırmağa tam hazır olacaq. Danışıqlar prosesi kifayət qədər mürəkkəb oldu. Bu gərgin fəaliyyət və tərəfləri razılaşmaya cəlb etmək istiqamətindəki cəhdlər özünü doğrultdu. Həm Muxtar Babayev, həm də Yalçın Rəfiyevin komandası bu müddətdə kifayət qədər gərgin işlər gördü. Problemin həcmini və mürəkkəbliyini nəzərə alaraq tərəflərin razılığa gəlməsi məqsədilə liderlik nümayiş etdirilməsinə çalışıldı. Beləliklə, COP29-un yeni iqlim hədəflərinin müəyyənləşdirilməsində irəliyə doğru tarixi addım atıldı. Bunun əksini düşünənlər isə ciddi şəkildə yanıldılar. Çünki Bakı maliyyə məqsədi növbəti onillikdə milyardları trilyonlara çevirəcək. Çünki Bakı platforması inkişaf etməkdə olan ölkələr üçün əsas iqlim maliyyəsi hədəfinin hər il üç dəfə artırılmasını təmin etdi. Nəticədə ilk gündən Azərbaycanda keçirilən tədbirə münasibətdə ümidsizlik yaradan mərkəzlər, ABŞ və Avropa İttifaqı rəsmilərinin ümidləri heç oldu. Qərbin məsuliyyətdən yayınmaq üçün məsələni siyasiləşdirmək, yeni maliyyə hədəfinin müəyyən edilməməsi üçün süni maneələr yaratmaq cəhdləri iflasa uğradı. Konfransı boykot edən Emmanuel Makron, Olaf Şolts, Ursula Fon der Lyayen kimi liderlərin çabalarına baxmayaraq, aparıcı Qərb dövlətləri beynəlxalq ictimaiyyətin təzyiqləri qarşısında geri çəkilmək məcburiyyətində qaldılar. Bu tarixi razılaşma məhz Bakıda əldə olundu. Prezident İlham Əliyev isə COP29 tribunasından Azərbaycanın yeni siyasi, iqtisadi və sosial inkişaf modelini dünyaya təqdim etdi. Daha bir tarix gerçəkləşdi. Uzun müddət yeni kollektiv kəmiyyət hədəfi mövzusunda razılığa gəlməyən tərəflər COP29-da Bakı iqlim həmrəyliyi paktını alqışla qarşıladı. Bundan sonra iqlim dəyişikliyi ilə mübarizə mövzusunda Bakı adı xüsusi olaraq hallanacaq.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. AZƏRTAC, (25.11.2024), COP29 sayəsində iqlim böhranına qarşı ölkələrin mübarizə imkanları yenidən səfərbər edilir*

*https://azertag.az/xeber/cop29_sayesinde_iqlim_bohranina_qarsi_olkelerin_mubarize_imkanlari_yeniden_seferber_edilir___tehlil-3302108*

*2. Prezident.az., (a), (23.09.2024), İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edib*

*https://president.az/az/articles/view/66895*

*3. Prezident.az., (b),(13.11.2024), COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti keçirilib*

*https://president.az/az/articles/view/67299*

*4. Prezident.az., (c), (13.11.2024), COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində İlham Əliyevin nitqi*

*https://president.az/az/articles/view/67325*

*5. Prezident.az., (ç), (12.11.2024), Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib*

*https://president.az/az/articles/view/67281*

*6. Rəhimova.K., (26.11.2024), Qanunla.az, COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!*

*https://www.qanunla.az/cop29-iqlim-diplomatiyasinda-donus-noqtesidir-2/*

*7. Məmmədov R. (24.11.2024), Həftə verlişi*

*https://www.youtube.com/live/ZYpPrTYu92c*

*8. X.com., İlham Əliyev, (24.11.2024), COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!*

*https://x.com/azpresident/status/1860632591088464001?s=51&t=jqJtmgYZv6g9bKUMNUQh6g*


## XÜLASƏ


Məqalədə 2024-cü il noyabr ayının 11-dən 22-nə qədər davam edən COP29 və böyük diskussiyalar, çətin müzakirələr nəticəsində bütün tərəflərin planetin sabahı üçün xüsusi önəm daşıyan məsələlərdə razılığa gələ bilmələri və bu razılıqların əldə olunması təhlil edilib. Eyni zamanda COP29-a sədrlik edən Azərbaycanın bu nəticələrin əldə olunmasında əhəmiyyətli rol oynaması, COP29 sayəsində iqlim böhranına qarşı dünya ölkələrinin mübarizə imkanları qələmə alınıb. Həmçinin qlobal tədbirin iki həftə ərzində mühüm qərarları, qızğın müzakirələri, ən əsası eksklüziv çağırışları ilə tarixə keçməsi, gündəliyə çıxarılan aktual mövzular, verilən praktik təkliflər və qlobal iqlim dəyişiklikləri ilə mübarizə məqsədilə qəbul edilən qərarlar araşdırılıb. Məqalədə alınan nəticə COP29-un əvvəlki konfranslardan daha effektiv, daha məhsuldar olması və qarşıya qoyduğu missiyanı uğurla yerinə yetirməsi və COP29-un yeni iqlim hədəflərinin müəyyənləşdirilməsində irəliyə doğru tarixi addımlarıdır.



**Açar sözlər:** *COP29, Qərb, Kiçik ada dövlətləri, Yaşıl dünya, Həmrəylik.*

## COP29: A TURNING POINT IN CLIMATE DIPLOMACY

**Aytekin Zeynalova**
***Doctor of Philosophy in Political Science***
***Baku State University***
***Associate Professor of the Department of International Journalism and Information Policy***

**SUMMARY**

This article analyzes COP29, held from November 11 to 22, focusing on the major discussions and challenging negotiations that led to agreements crucial for the planet's future. It highlights the significant role played by Azerbaijan, presiding over COP29, in achieving these outcomes. The article examines how COP29 facilitated global efforts to combat the climate crisis and its importance as a milestone in addressing climate change challenges. The conference's historic two-week period is characterized by essential decisions, intense debates, exclusive calls to action, and practical proposals addressing global climate issues. The results underscore that COP29 was more effective and productive than previous conferences, successfully accomplishing its mission and taking historic steps toward defining new climate goals.

**Keywords:** *COP29, West, Small Island States, Green World, Solidarity.*

## КОП29: ПОВОРОТНЫЙ МОМЕНТ В КЛИМАТИЧЕСКОЙ ДИПЛОМАТИИ

**Айтекин Зейналова**
***Кандидат политических наук***
***Бакинский Государственный Университет***
***Доцент кафедры Международная журналистика и информационная политика***

**РЕЗЮМЕ**

В статье анализируется конференция КОП29, которая проходила с 11 по 22 ноября, с акцентом на крупные дискуссии и сложные переговоры, приведшие к соглашениям, имеющим особое значение для будущего планеты. Подчеркивается значительная роль Азербайджана, председательствующего на КОП29, в достижении этих результатов. В статье рассматриваются возможности стран мира в борьбе с климатическим кризисом, которые были раскрыты благодаря КОП29. Также отмечено, что двухнедельный период глобального мероприятия вошел в историю благодаря важным решениям, жарким обсуждениям, эксклюзивным призывам к действию и практическим предложениям по борьбе с глобальными изменениями климата. Сделанные выводы подтверждают, что КОП29 стал более эффективным и продуктивным, чем предыдущие конференции, успешно выполнил свою миссию и сделал исторические шаги к определению новых климатических целей.

**Ключевые слова:** *КОП29, Запад, Малые островные государства, Зеленый мир, Солидарность.*